

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 189 (21.850)

6 oktyabr 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## “Ulu öndər Heydər Əliyev və müasir Azərbaycan təhsili” mövzusunda məşğələ keçirilib

***Naxçıvan Dövlət Universitetində Heydər Əliyev lektoriyasının növbəti – 216-cı məşğələsi keçirilib.***

5 oktyabr – Beynəlxalq Müəllimlər Günündə keçirilən məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ***“Mən dünyada müəllimdən şərəfli ad tanımıram”***, – deyən ulu öndər Heydər Əliyevin Azərbaycanda milli təhsil sisteminin formalaşdırılması və inkişafı istiqamətində gördüyü işlərdən danışıb. Vurğulanıb ki, ümummilli lider Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə milli təhsilin inkişafı istiqamətində mühüm işlər görüb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Ölkəmizdə təhsilin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsinin nəticəsidir ki, son illərdə bu sahədə mühüm dövlət proqramları icra olunur və kompleks tədbirlər həyata keçirilir. Azərbaycan bu gün dünyada özünün müasir təhsil infrastrukturu və ənənələri ilə seçilir. Təhsil sistemimizin hərtərəfli qayğı ilə əhatə olunması əvvəlki dövlətin öz gələcəyini daha etibarlı və işıqlı görmək əzmindən xəbər verir.



“Ulu öndər Heydər Əliyev və müasir Azərbaycan təhsili” mövzusunda çıxış edən Pedaqogika və psixologiya kafedrasının müdiri, psixologiya üzrə fəlsəfə doktoru, dosent Sevinc Orucova qeyd edib ki, milli təhsil sisteminin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq son illərdə ölkəmizdə, o cümlədən muxtar respublikamızda yeni məktəb binaları və müasir təhsil komplekslərinin tikilib istifadəyə verilməsi əvvəlki dövrlərlə müqayisəyəgəlməz dərəcədə çoxluq təşkil edir. Sevindirici haldır ki, bu proses nəinki şəhər və rayon mərkəzlərini, ən ucqar kəndləri də əhatə edir.

Qeyd olunub ki, muxtar respublikamızda müəllimlərin sosial vəziyyətlərinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır, onların əməyi layiqincə qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 3 oktyabr tarixli sərəncamları ilə muxtar respublikanın təhsil işçilərindən 4 nəfərinin “Tərəqqi” medalı ilə təltif olunması, 4 nəfərin isə “Azərbaycan Respublikasının Əməkdar müəllim”, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həmin tarixdə imzaladığı Sərəncamla 4 nəfərə “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adı verilməsi buna parlaq sübutdur.

Məşğələnin sonunda ulu öndər Heydər Əliyevin Azərbaycanda milli təhsil sisteminin inkişafı istiqamətində gördüyü işlərdən bəhs edən film nümayiş etdirilib.

**Səadət ƏLİYEVA**

## Büdcədən maliyyələşən təşkilatların nümayəndələri üçün maarifləndirmə tədbirləri davam etdirilir



***Dünən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində dövlət büdcəsindən maliyyələşən təşkilatlarda sığorta işinin təşkili məsələləri ilə bağlı tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan maliyyə nazirinin müavini Elçin Əliyev müasir dövrümüzdə sığortanın gözlənilməz hadisələrin nəticələrinin aradan qaldırılmasında oynadığı əhəmiyyətli roldan danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxışında inkişaf edən cəmiyyətin bir tələbi kimi sığortaya olan marağın artmasından, ölkəmizdə sosial-iqtisadi inkişafın sürətlənməsi ilə insanların rifah halının yüksəlməsi sayəsində bu sahənin xüsusi əhəmiyyətindən bəhs edib.

Qeyd olunub ki, insanların həyatı, sağlamlığı və əmlakının qorunması üçün tədbirlər görülsə də, hər zaman qəfil hadisələrin qarşısını almaq mümkün olmadığından insanlar zərər çəkə bilərlər. Ona görə də Naxçıvan Muxtar Respublikasında sığorta işinin müasir tələblər səviyyəsində qurulması istiqamətində ölkəmizdə qüvvədə olan qanunlara əsasən bir sıra icbari və könüllü sığorta növləri üzrə işlər aparılmaqdadır.

Bildirilib ki, sığortanın müasir tələblərə uyğun şəkildə qurulması işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə” keçirilən müşavirənin xüsusi əhəmiyyəti vardır. Bu gün muxtar respublikamızda daşınmaz əmlakın icbari sığortası və avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, habelə könüllü sığortaların geniş yayılması baş verən gözlənilməz hadisələr zamanı sığortalı vətəndaşlara dəymiş maddi zərərlərin əvəzinin ödənilməsinə imkan yaradır.

Çıxışda məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin və hərbi qulluqçuların dövlət icbari şəxsi sığortaları, dövlət büdcəsindən maliyyələşən digər işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortası üzrə sığorta haqlarının dövlət büdcəsi hesabına ödənildiyi vurğulanıb. Tədbirdə iştirak edənlərə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlakın icbari sığortasının mahiyyəti, əhəmiyyəti və həyata keçirilməsi prosesi barədə ətraflı məlumat verilib, sığorta ödənişlərinin verilməsi sahəsində qanunvericiliyin tələbləri diqqətə çatdırılıb.

Büdcədən maliyyələşən təşkilatlarda işləyən avtonəqliyyat vasitəsi sahiblərinin tam sığortası, fərdi qəza sığortası, ev əmlakı sığortasının aparılmasının vacibliyi haqqında danışan baş direktor bu sahədə təbliğat və maarifləndirmə işlərinin əhəmiyyətini vurğulayıb.

Elçin Əliyev tədbirə yekun vuraraq muxtar respublikamızda baş verən gözlənilməz hadisələrdən dəyən zərərlərin əvəzinin ödənilməsi zamanı sığorta işinin əhəmiyyətini bir daha qeyd edərək hər bir idarə, müəssisə, təşkilat və vətəndaşları bu sahədə fəallıq göstərməyə çağırıb.

**Əli CABBAROV**

## Sənaye məhsulu istehsalı artır

***Ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə regionların tarazlı inkişafına, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Çünki enerji və ərzaq təhlükəsizliyi ilə bərabər, sənaye məhsulu istehsalı da ölkənin iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən biridir.***

Milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Regional inkişafa göstərilən bu diqqət ölkəmizin bütün regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına şərait yaradıb. Nəticədə, muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişaf etdirilməsinə yönəlmiş kompleks tədbirlər bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olub.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2017-ci ilin yanvar-avqust aylarında 1 milyard 705 milyon 749 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 5,4 faiz artaraq 3788 manata çatıb.

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri də sənaye sahəsi tutur. Sənaye üzrə 708 milyon 256 min manat dəyərində məhsul istehsal edilib. Bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,4 faiz üstələyir.

**Xəbərlər şöbəsi**

*Naxçıvan şəhərindəki “Təbriz” otelində “Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)” mövzusunda vəkillər üçün ikigünlük təlimlərə başlanılıb.*

## İkigünlük təlimlər təşkil olunub



Avropa İttifaqının və Avropa Şurasının Birgə Proqramı əsasında, Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları layihəsi çərçivəsində keçirilən tədbiri Avropa Şurası, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası təşkil edib.

Təlim başlanmazdan əvvəl Avropa Şurasının Bakıdakı Ofisinin nümayəndəsi Vəfa Rövşənova bildirib ki, vəkillər üçün təşkil edilən təlimə muxtar respublikanın birinci və apellyasiya instansiya məhkəmələrində fəaliyyət göstərən hakimlər və prokurorluq əməkdaşları da dəvət olunub. Bu da mövzu ətrafında müzakirələrin səmərəli aparılmasına imkan yaradacaq. Təlimdə Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsində nəzərdə tutulan təminatlar, o cümlədən Avropa Məhkəməsinin müvafiq presedent hüququnun tətbiqi və ölkədaxili qanunvericilik müzakirə olunacaqdır. Bundan başqa, təlim müddətində mövzuya dair bu və ya digər nəzəri-təcrübi fikirlər təhlil ediləcək, təlim iştirakçılarına xüsusi vəsaitlər təqdim olunacaqdır. Əminliklə demək olar ki, iştirakçılar bu təlimdən çox məlumatlar əldə edə biləcəklər.

Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyasının Sədri Tural Hüseynov son illərdə qanunvericilik sahəsində aparılan islahatlardan danışıb, bu təlimin vəkillərin gələcək fəaliyyətində mühüm rolu olacağını bildirib. Qeyd edilib ki, bu gün muxtar respublika ölkəmizin nüfuzlu beynəlxalq təşkilatlar qarşısında qəbul etdiyi bütün öhdəliklərin yerinə yetirilməsində iştirak edir. Muxtar respublikanın hüquq institutları da Azərbaycan Respublikanın hüquq institutlarının vahid sistemində bu sahədəki öhdəliklərin yerinə yetirilməsində fəallıq göstərir. Əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsi üçün vəkillik institutunun hüquqi statusu müəyyən edildikdən sonra Vəkillər Kollegiyası hər bir vətəndaşın hüquq və azadlıqlarının, qanunla qorunan mənafelərinin müdafiə edilməsi, onlara yüksəkkeyfiyyətli hüquqi yardımın göstərilməsi sahəsində səylə çalışır.

Sonra HELP-in (Hüquqşünaslar üçün insan hüquqlarının tədrisi üzrə Avropa Proqramı) təqdimatı olub. Bu proqramın Azərbaycan vəkilləri üçün əlaqələndiricisi Fərhad Nəcəfovun təqdimatı zamanı bildirilib ki, proqram Avropa Şurasının üzvü olan ölkələrdə məhkəmə-hüquq sahəsində çalışan peşəkar əməkdaşlar üçün ixtisasartırma vasitəsidir. HELP milli bacarıqlardan istifadə etməklə milli tədris institutları vasitəsilə ümumi tədris proqramı həyata keçirir. Bu çərçivədə təhsil, ailə hüququ, məhkəmə-hüquq, beynəlxalq əməkdaşlıq, presedent hüquqla bağlı bir sıra distant kurslar təşkil edilir. Kursların sonunda iştirakçılar müəyyən meyarlar üzrə qiymətləndirilir və onlara sertifikatlar təqdim olunur.

Təlimdə “İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə ərizələrin qəbuledilənlik meyarları: 6-cı maddənin ümumi hissəsi. Maddənin əhatə dairəsi” mövzusunda təlimçi Şəlalə Quluzadənin təqdimatı olub. Təqdimat zamanı iştirakçıların diqqətinə çatdırılıb ki, Avropa İnsan Hüquqları Məhkəməsi yalnız Avropa İnsan Hüquqları Konvensiyasında müəyyən olunmuş hüquqlarının pozulduğunu iddia edən şəxs, təşkilat və şirkətlərdən gələn şikayətlərə baxan beynəlxalq məhkəmədir. Konvensiya bir çox Avropa dövlətlərinin müəyyən əsas hüquqların təmin edilməsi barədə razılığa gəldiyi beynəlxalq müqavilədir. Məhkəmənin hər növ şikayətlərə baxmaq səlahiyyəti yoxdur. Onun səlahiyyətləri Konvensiyada nəzərdə tutulmuş kimin, nə zaman və nə barədə şikayət etmək qabiliyyətini məhdudlaşdıran qəbuledilənlik meyarları ilə müəyyənləşir. Məhkəmə tərəfindən baxılan ərizələrin 90 faizindən çoxu qəbuledilməz elan olunur. Bu səbəbdən məhkəməyə müraciət etmədən öncə şikayətlər qəbuledilənlik tələblərinə müvafiq gəlmədir.

Tədbirdə təlimçilərdən Nihad Əliyev və Nuranə İbadova tərəfindən “6-cı maddənin ümumi hissəsi: “Mülki hüquq və vəzifələr” və “Cinayət ittihamı” məhkəməyə müraciət hüququ. İşə “ağlabatan müddətdə” baxılması”, “Ədalətli məhkəmə araşdırmasının ümumi tələbləri: Qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə, çəkişmə prinsipi, tərəflərin bərabərliyi”, “Ədalətli məhkəmə araşdırmasının ümumi tələbləri: açıq məhkəmə araşdırması, “Susmaq hüququ və öz əleyhinə ifadə verməmək hüququ, əsaslandırılmış məhkəmə qərarı ” mövzularında təqdimatlar olub, təlim iştirakçılarının sualları cavablandırılıb.

Təlimin birinci gününün sonunda qrup işi – kazusun müzakirəsi aparılıb.

Məlumat üçün bildirək ki, təlimin ikinci günündə təqsirsizlik prezumpsiyası, müdafiə hüquqları – nədə təqsirləndirilmək barədə dərhal məlumatlandırmaq, müdafiənin hazırlanması üçün kifayət qədər vaxt və imkana malik olmaq, şəxsən və ya müdafiəçinin yardımı ilə müdafiə olunmaq, tərcüməçi ilə təmin olunmaq hüququ, şahidlərin dindirilməsi, sübutlar haqqında təqdimatlar olacaq, kazus müzakirə ediləcək. Yekunda isə qazanılan biliklər qiymətləndiriləcək və bu əsasda vəkillərə sertifikatlar təqdim ediləcəkdir.

**Səbuhi HÜSEYNOV**




# Rayonların sosial-iqtisadi həyatı

## Yol gedir Ordubada ...

### *Yaxın keçmişimizin xatirələri, bu günümüzün təəssüratları*

*“...Biz ağsaqqallar böyük narahatlıq hissi ilə Sizə bildirməyə məcburuq ki, Ordubad rayonunda ictimai-siyasi vəziyyət olduqca gərgindir. Bunun bir səbəbi ondan irəli gəlir ki, rayonun inzibati orqanları, ilk növbədə isə rayon prokuroru və xalq hakimi siyasi sabitliyi bərpa etmək iqtidarında deyillər. Dövlət qanunlarının icrasına nəzarət edilmir, zəhmətkeşlərin hüquqlarının qorunmasına laqeyd münasibət göstərilir, sağlam qüvvələrin hər addımda təhqir edilməsinə, onların hədələnməsinə, döyülməsinə heç bir reaksiya verilmir. Bir sözlə, rayon prokuroru və rayonun xalq hakimi Azərbaycan dövlətinin və respublika hökumətinin qanunlarını və hüquqi aktlarını yerinə yetirmək istəmir, Xalq Cəbhəsinin mənafeyinə xidmət göstərirlər. 1 mart 1994-cü il tarixdə biz ağsaqqalların təşəbbüsü ilə keçirilən mitinqdə ictimaiyyəti narahat edən bir sıra problemlər açıqlandı. Çıxış edənlər dəqiq faktlar əsasında göstərdilər ki, rayon rəhbərliyi fəlakət qarşısında olan rayonu xilas etmək iqtidarında deyildir. Buna görə də xalq deputatları məclisinin və İcraiyyə Komitəsinin rəhbərliyi qeyd-şərtsiz istefa verməlidirlər”.*

Bu sətirlər ümummilli liderimiz Heydər Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Ordubad rayonunun şəhər, qəsəbə və kəndlərində yaşayan bir qrup ağsaqqalın iştirak etdiyi, 1 mart 1994-cü il tarixdə keçirilmiş mitinqdə qəbul edilmiş müraciətindən götürülüb. Qeyd edək ki, müraciət “Şərq qapısı” qəzetinin 5 mart 1994-cü il tarixli nömrəsində dərc edilib və Ordubad rayonunun o illərdəki durumunu gözlər önünə sərir.

Həmin mitinqdə qəbul edilmiş qətnamədə deyilirdi: *“1 mart 1994-cü il tarixdə Ordubad şəhərində rayon ağsaqqallarının iştirakı ilə keçirilən mitinqdə rayonda ictimai-siyasi vəziyyəti, getdikcə dərinləşən iqtisadi böhranı, günü-gündən artan mənəvi sarsıntı şəraitini böyük narahatlıq hissilə müzakirə edərək bildiririk ki, Azərbaycanda xalq təsərrüfatının bir çox sahələrində, eləcə də ideya-siyasi, əxlaqi və vətənpərvərlik sahəsində nəzərəçarpan müsbət dəyişikliklər əmələ gəldiyi, siyasi iqlimdə sabitlik yarandığı halda, Ordubad rayonunda dözülməz vəziyyət hökm sürməkdədir. Azərbaycan dövləti, hökuməti, ali qanunvericilik orqanları tərəfindən qəbul edilən mühüm həyati əhəmiyyətə malik qərarlar və hüquqi aktlar yerinə yetirilmir. Rəhbərliyin zəifliyi, təşkilatçılıq işinin yarıtmaz olması ilə əlaqədar müəssisələr işləmir, xidmət təşkilatlarının bir çoxu iflic vəziyyətinə düşmüşdür. İşsizlik ictimai bəlaya çevrilmişdir. Kənd təsərrüfatı tamamilə dağılmaq üzrədir. İctimai mal-qara talan edilərək satılmışdır. Bağ-bağat, tutluqlar, üzümlüklər, əsasən, sıradan çıxmış, bərəkətli torpaqların bir hissəsi naxələf adamların əlinə keçmişdir. Təsərrüfatda qaramalın sayı son 3 ildə 10 dəfə, davarların sayı 12 dəfə, ət və süd istehsalı orta hesabla 200 dəfə azalmışdır.*

*Təxribat xarakterli təbliğat və rayon rəhbərliyinin anlaşılmaz mövqeyi nəticəsində təsərrüfata düşmən münasibət bərqərar olmaqdadır. Yerlərdə torpağa münasibət dözülməzdir. Payızlıq taxıl əkinləri heç bir aqrotexniki qaydada aparılmamış, indiyədək becərilmə tədbirləri həyata keçirilməmişdir. Cari ilin məhsulu üçün yaz-tarla işlərinə hazırlıq isə tamamilə unudulmuşdur. Kəndlərdə əmək qabiliyyətli əhalinin əksəriyyəti ictimai faydalı əməkdən kənarda qalmışdır. Xırda alver, möhtəkirlik, kommersiya ticarəti əhalini ac-yalavac vəziyyətə düçar etmişdir”.*

Həmin dövrdə baş verənlər yalnız acı xatirə kimi yaddaşlarda qalıb.



O dövrün canlı şahidi, rayon ziyalısı, təqaüdçü müəllim Südeyif Hacıyevin xatirələrindən: – 1995-ci ildə cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə Ordubad rayonunda vəziyyət müsbətə doğru dəyişildi, bütün sahələrdə iflasa üz tutmuş rayonda həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində əvvəlcə ictimai-siyasi sabitlik bərpa olundu, iqtisadi böhranın aradan qaldırılması üçün ilkin zəruri addımlar atıldı. O dövr üçün atılan mütərəqqi addımlardan biri də qanunların aliliyinin təmin edilməsi, dövlət qurumlarında yüksək vəzifələrə səriştəli şəxslərin gətirilməsi, aqrar sahədə mühüm qərarların verilməsi oldu. Rayonun müxtəlif sahələrdə inkişafına əhalinin bütün təbəqələri cəlb edildi. Bunun da nəticəsində inkişaf təmin olundu, əhalinin məşğulluq problemi aradan qaldırıldı, azad sahibkarlıq inkişaf etdirildi, dağıdılmış aqrar sahə bərpa olundu. Son 22 ildə rayonda görülən işlər onu deməyə əsas verir ki, ulu öndərimizin Naxçıvanın inkişafı naminə başlatdığı işlər muxtar respublika rəhbəri tərəfindən uğurla davam etdirilir.





Bəli, keçmişlə bu gün arasında körpü salarkən Ordubadın böyük inkişaf yolu keçdiyinə şahidlik edənlərlə söhbətimiz maraqlı məqamlarla yadda qalır. Ordubad şəhər sakini Yusif Abbasquliyevin dediklərindən: – Ordubadın o çətin günlərində, saysız məhrumiyyətlərlə üzləşən rayon sakinlərinin, sağlam düşüncə sahibi insanların yeganə təsəllisi ulu öndərimizin muxtar respublikaya rəhbərlik etməsi olub. Hər kəsin qəlbində zərrə qədər də şübhə yeri olmayıb ki, tezliklə Ordubadda ikihakimiyyətliliyə son qoyulacaq. Dövlətin güclü əli yerində olmayan daşları yerinə qoyub, hər bir sahədə qanunun aliliyini təmin edəcək. Belə də oldu. 1995-ci ildən sonra isə bərbad infrastruktura malik Ordubad əhalisi şüşə kimi hamar yollara, fasiləsiz elektrik enerjisi və mavi yanacağa, abad kəndlərə, ən müasir üslubda inşa olunmuş məktəb və bağçalara, dolanışığını təmin edən iş yerlərinə, bir sözlə, sosial rifaha qovuşdu. Rayonun çətin günlərində Ordubadı tərk edib gedənlərdən bəzilərinin indi uzaqdan Ordubada “qayğıkeşlik” göstərdiyini görəndə, sözdə yanarlılıq nümayiş etdirdiklərini eşidəndə istər-istəməz narahatlıq keçirirəm. Belələrinə üz tutub demək istəyirəm ki, gözlərini açıb Ordubada bir də yaxşı-yaxşı baxsınlar. İndi bu rayon söz qəhrəmanlarının deyil, əməldə qayğıkeşlik, təəssübkeşlik göstərən insanların meydanıdır.

*Yol gedir Ordubada*... Rayonun bu günündən söz açmışkən dağlar arasında ilan kimi gah qıvrılıb, gah açılan yollar, körpülər haqda danışmamaq, ağappaq yol nişanları ilə bəzədilmiş yolların ətrafında sırayla salınan, balaca uşaq kimi hər gün qulluq və nəvaziş görən fidanları vəsf etməmək ən azından etinasızlıq olar.

Maraqlısı budur ki, bir ucu Ordubad şəhərindən başlayan yolların istənilənini gözünə kəsdirib getsən, sonuncu ünvana, kəndə qədər aparan yolda eyni keyfiyyətin, eyni səliqənin və diqqətin şahidi olarsan. Hamar yolda irəliləyən avtomobil bağ-bağçaların, bir-birindən yaraşıqlı kənd mərkəzlərinin, məktəblərin, həkim ambulatoriyalarının, muzeylərin və digər obyektlərin yanından keçdikcə rayonun müstəqillik dövründə nail olduğu uğurlu yol kino lenti kimi gözlər önünə gəlir. Bir daha əmin olursan ki, müstəqil Azərbaycanın çiçəklənən Ordubadında hər şey müsbətə doğru dəyişilib, hər şey yenilənib. İstər-istəməz bu dəyişikliklərin əldə olunması üçün gərgin əmək sərf edildiyi qənaətinə gəlirsən. Çünki rayonun aran kəndləri bir tərəfə dursun, uçqar dağ kəndlərində, sıldırım qayaların qənşərində elə tikililər ucaldılıb ki, burada daş üstünə daş qoyulması 70 illik sovet dövrünün inşaatçıları üçün müşkül məsələ olub. Ancaq müstəqillik illərində dövlətimizin qətiyyətli addımları inşaatçıları gördükləri işə daha da həvəsləndirib. Uçqar dağ kəndlərinə mal-materialın, avadanlığın, texnikanın aparılması nə qədər çətin olsa da, qarşıya çıxan çətinliklər inşaatçılarımızı qorxutmayıb, əksinə onlar böyük diqqət, məsuliyyət və əzmkarlıqla öhdələrinə düşən vəzifələri yerinə yetiriblər. Son 22 ildə rayonda yüzdən çox obyekt inşa edilərək və ya yenidən qurularaq istifadəyə verilib, onlarla yaşayış məntəqəsi, eləcə də uçqar dağ yaşayış məntəqələri abad kəndlər sırasına qoşulub. 2002-ci ildə rayonda əsas kapitala yönəldilmiş investisiyaların tikinti-quraşdırma işlərinə ayrılan həcmi 330 min manat idisə, təkcə 2017-ci ilin 8 ayında bu rəqəm 36 milyon 257,8 min manat təşkil edib. Bütün bu görülən işlər rayonun dünənindən bu gününə seçilən düzgün yolun qazandırdığı nailiyyətlərdən, dövlətimizin rayon sakinlərinin rahat yaşamasına və işləməsinə diqqətindən, bir sözlə, muxtar respublikada insan amilinə verilən önəmdən xəbər verir.

Ordubad rayonunun Aza kənd sakini Məhəmmədəli Kazımov deyir ki, rayonda son illərdə əkinçiliyə, eləcə də kənd təsərrüfatının digər sahələrinə marağın artması bir çox amillərlə bağlıdır. Yəni torpağa münasibətin dəyişməsi səbəbsiz deyil. Müstəqilliyin ilk illərində min bir əziyyətlə yetişdirilən məhsul suvarma suyu çatışmazlığı ucbatından əkinçinin gözü qarşısında tələf olurdu. Bir çox hallarda isə alıcı məsələsi həllini tapmadığından yetişdirilən məhsul tarlada dəyər-dəyməzinə satılırdı. Bundan başqa, istehsalçı, əkinçi bilmirdi ki, yaxşı məhsuldarlığa nail olmaq üçün keyfiyyətli toxumları, mineral gübrələri haradan və kimdən alsın. Üstəlik, əkinçinin sağ əli hesab olunan texnika sarıdan təminat aşağı səviyyədə idi. Ən yaxşı halda sovet dövründən qalma köhnə və yararsız maşın-mexanizmlər kara gəlirdi. İstismar müddətini başa vurmuş bu texnika ilə aqrotexniki tədbirlərin müəyyən olunmuş müddətdə həyata keçirilməsini, məhsulun vaxtında və itkisiz yığılmasını təşkil etmək mümkün deyildi. Təbii ki, bu çətinliklərin müqabilində əkinçinin qazancı az olurdu. Gəlir çəkilən xərcləri ödəmirdi. Nəticədə, istehsalçı torpaqdan aralı düşürdü. Amma nə yaxşı ki bu çətinliklərin ömrü uzun olmadı. Ölkənin maddi imkanları yaxşılaşdıqca dövlətin aqrar sahəyə qayğı və diqqəti artdı. Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi, kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi, onların yüksəkkeyfiyyətli toxumla, gübrə və texnika ilə təmin olunması, eləcə də emal müəssisələrinin yaradılması, suvarma sistemlərinin təkmilləşdirilməsi və yenidən qurulması kəndlini torpağa qaytardı. İndi istəsə, kəndli məhsulunu həmin gün satar, istəsə, soyuducu anbarlara tədarük edər, qış aylarında sərfəli qiymətə bazara çıxarar. Bir ağsaqqal kimi torpaq mülkiyyətçilərinə üzümü tutub demək istəyirəm ki, yaradılan şəraitin qədir-qiymətini bilsinlər, bu imkanlardan səmərəli istifadə etsinlər, şəraitin yaratdığı üstünlükləri dəyərləndirməyi bacarsınlar. Onda xeyir-bərəkət də olacaq, bolluq da.

Bağ salmaq, ağac əkmək, bağçaları gül-çiçəyə qərq etmək ata-babalarımızdan bizə miras qalıb. Ordubadda iməciliklər yolu ilə yerli iqlim və relyefə uyğun tezyetişən meyvə sortlarından ibarət meyvə bağları salınıb, 200 minə yaxın ting əkilib. Dövlətin maliyyə dəstəyindən yararlanan rayon sakinləri qurutma, paketləmə sahələri, istixanalar yaradıblar. Təkcə bu ilin ötən dövründə meyvə bağlarından 27 ton məhsul əldə edilib. Bu il rayonun bağlarında 35 növdə ərik, 17 növdə şaftalı, 22 növdə gavalı, 9 növdə alça, 35 növdə cəviz, 14 növdə heyva, 16 növdə armud, 6 növdə əncir, müxtəlif növlərdə gilas, gilənar, zoğal, badam yetişdirilib, dadı-tamı ilə bütün ölkədə məşhur olan limon istehsalı artırılıb.

Əhalinin alıcılıq imkanlarının yaxşılaşması bazarlara Ordubad rayonundan daha çox süfrə üzümü və ondan hazırlanan müxtəlif məhsulların çıxarılması ilə müşayiət olunur. Hazırda daxili və xarici bazara keyfiyyətli məhsul çıxarılması, yeni texnologiyanın tətbiqi, üzümçülük üzrə böyük fermer təsərrüfatlarının yaradılması istiqamətində məqsədyönlü iş aparılır, üzümçülüyün sənaye miqyasında genişləndirilməsi imkanları araşdırılır.

Müstəqillik illərində arıçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, dövlət maliyyə dəstəyinin gücləndirilməsi daha uğurlu göstəricilər əldə edilməsinə şərait yaradıb. Bütün bunların nəticəsidir ki, rayonda arı ailələrinin sayı ilbəil artır, istehsal olunan məhsulun nəinki rayondan, hətta muxtar respublika hüdudlarından kənarda da satışı təşkil edilir.

*Əzizim Ordubada,*
*Yol gedir Ordubada.*
*Sərkərdə mətin olsa,*
*Getməz heç ordu bada.*

Bu gün Ordubad rayonunun düşmənlə üzbəüz yaşayış məntəqələrini qoruyan hər bir əsgər, hər bir komandir bir sərkərdədir. Onlar doğma Naxçıvanımızın, eləcə də qədim yurd yerimiz Ordubadın hər qarışı üçün canlarından keçməyə hazırdırlar. Bu isə qədirbilən sakinləri daha da ruhlandırır, onları yaşayıb-yaratmağa sövq edir. Ordubad rayonunun yaşayış məntəqələrini gəzərkən, tarixiliyin və müasirliyin vəhdətindən doğan gözəllikləri seyr edərkən bir daha müstəqilliyimizin saysız bəhrələrinin insanların həyatına, məişətinə, yaşayış tərzinə müsbət təsir etdiyinin şahidinə çevrilirsən.

*Bu gün hər bir ordubadlı muxtar respublika rəhbərinin qayğıkeş əməllərinin bəhrəsini gündəlik həyatında hiss edir, insanların yaxşı yaşaması üçün yaradanların yaxşı əməllərini minnətdarlıqla qarşılayırlar.*

**Səbuhi HÜSEYNOV**

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin yaranmasının 10-cu ildönümü qeyd olunub



***Oktyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin yaranmasının 10-cu ildönümü münasibətilə tədbir keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları müstəqil Azərbaycanın qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzərək ulu öndərin xatirəsini dərin ehtiramla yad edib, Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edərək deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 5 oktyabr tarixli Fərmanı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti 10 ildə mühüm inkişaf yolu keçib. Muxtar respublikada insan hüquqlarının qorunması, o cümlədən saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi diqqət mərkəzindədir. Penitensiar Xidmət də bu məqsədlə – həm məhkumların reabilitasiyası və cəmiyyətə qovuşmasını asanlaşdırmaq, həm də onların ailələrinin vəziyyətini yaxşılaşdırmaq məqsədilə yaradılıb. Bu xidmətin yaradılması muxtar respublika əhalisi tərəfindən rəğbətlə qarşılanıb və məhkumların islah olunmasına müsbət təsir göstərib.

Qeyd olunub ki, Penitensiar Xidmət yarandıqdan sonra qısa müddətdə müasirtipli Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi tikilərək istifadəyə verilib, məhkumların və təqsirləndirilən şəxslərin saxlanma şəraiti, islaholma məsələləri, rejimə riayət olunma qaydaları diqqətdə saxlanıb. Xüsusilə məhkumların qidalanması, sağlamlığı və digər təminatları dövlət qayğısı ilə tam əhatə olunub. Nəticədə, cəza hüquq siyasətinin düzgün həyata keçirilməsinə və səmərəli olmasına şərait yaranıb. Bu gün Penitensiar Xidmətdə nizam-intizamın möhkəmləndirilməsi, rejim və davranış qaydalarına əməl edilməsi, qanunsuz əşyaların ötürülməsinin qarşısının alınması və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün fəal iş aparılır. Həmçinin islah və tərbiyə işinin səmərəli olması, istehsalat sahəsinin genişləndirilməsi və məhkumların saxlanma şəraitinin daha da yaxşılaşdırılması üzrə tədbirlər davam etdirilir.

Penitensiar Xidmətin əməkdaşlarının əməyinin qiymətləndirilməsinin də diqqət mərkəzində saxlanıldığını qeyd edən Cəlil Rüstəmov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 4 oktyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin əməkdaşlarının bir qrupunun təltif olunması da bu orqanın fəaliyyətinə göstərilən diqqətin daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin rəisi, ədliyyə polkovniki Tofiq Həsənov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə insan hüquqlarının etibarlı qorunmasına xüsusi ehtiyac duyulan sahələrdən biri olan Penitensiar Xidmətin təşkili muxtar respublikamızda cəza-icra siyasətinin həyata keçirilməsinə öz müsbət təsirini göstərmiş, məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə cəza çəkməsini təmin etmək məqsədilə yeni penitensiar müəssisələr tikilib istifadəyə verilmişdir. Bu gün məhkumların təminatı, sosial reabilitasiyası, məşğulluğu, asudə vaxtlarının təşkili, onlara tibbi yardımın göstərilməsi daim diqqət mərkəzində saxlanılır. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin istehsalat binasında 8 kompüter dəsti quraşdırılıb, 29 məhkumun eyni vaxtda müxtəlif peşə fəaliyyəti ilə məşğul olması üçün şərait yaradılıb. Bu günədək müəssisədə cəza çəkən məhkumlardan 107-si müxtəlif peşələr üzrə sertifikatlarla təmin olunub. Tofiq Həsənov yaradılan şəraitə və göstərilən qayğıya görə Ali Məclisin Sədrinə kollektiv adından minnətdarlıq edib.

Tədbirdə Penitensiar Xidmətin şöbə rəisi, ədliyyə polkovnik-leytenantı Əli Rəhimov və Xidmət İstintaq Təcridxanasının əməkdaşı, ədliyyə baş leytenantı İlham Yaqubov çıxış ediblər.

Sonra Naxçıvan Muxtar Respublikasında ədliyyə orqanlarında səmərəli fəaliyyətinə görə təltif edilən ədliyyə işçilərinə "Rəşadətli əməyə görə" nişanları təqdim olunub.

**"Şərq qapısı"**

*Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi də tapşırılıb. Bu istiqamətdə muxtar respublikada neçə illər əvvəl yaradılmış ənənəyə uyğun olaraq hazırlanmış yun corablar və şərflər "N" hərbi hissəyə təhvil verilib.*

## Toxunan isti geyimlər hərbi hissəyə təhvil verilib



Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Mirqiyas Rüstəmov açıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək bildirib ki, bu gün məhdud fiziki imkanlı 19 şəxs tərəfindən toxunan 1107 cüt yun corab və 214 ədəd şərf "N" hərbi hissəyə təhvil verilir. Bu tədbir həmin kateqoriyadan olan şəxslərin məşğulluğunu təmin etməklə onların maddi təminatlarının yaxşılaşmasına da öz töhfəsini verir. İlin sonunadək yun corab və şərflərin toxunması işi davam etdiriləcək.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Elxan Əlibəyov bildirib ki, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublika ərazisindəki hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı yüksəldilir. Fiziki imkanları məhdud insanlar tərəfindən toxunan isti geyimlərin hərbi hissəyə təhvil verilməsi artıq ənənə halını alıb. Dövlətimiz tərəfindən göstərilən bu diqqət hərbi qulluqçuların məsuliyyətini daha da artırır, onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olur.

"N" hərbi hissənin əsgəri Əli Rəcəbli əsgərlər adından göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonda yun corablar və şərflər hərbi hissəyə təhvil verilib.

**✍ Nail ƏSGƏROV**

## Duzdağda müalicə olunan acarıstanlı uşaqlarla görüş keçirilib



***Oktyabrın 5-də "Duzdağ" otelində Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunan acarıstanlı uşaqlarla görüş keçirilib.***

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından qonaqları salamlayıb. O, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında əlaqələrin inkişaf etdiyini, bu çərçivədə iqtisadi və humanitar sahələrdə əməkdaşlığın nəticəsi olaraq acarıstanlı uşaqların Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunduğunu bildirib. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasındakı turizm-sağlamlıq obyektlərinin xidmətlərindən istifadə edən dost ölkələrin vətəndaşlarının, xüsusən uşaqların sağlamlığının bərpa olunması çox sevindiricidir. Ötən illərdəki kimi, bu il sentyabrın 28-dən Duzdağ Fizioterapiya Mərkəzində müalicə edilən acarıstanlı uşaqlar bu dəfə də yüksək qayğı ilə əhatə olunublar. 26 nəfərlik qrupla gəlmiş qonaqlar "Duzdağ" otelində qalıb, Duzdağ şaxtalarının şəfaverici havası ilə təbii şəraitdə müalicə olunublar. Onların asudə vaxtlarının səmərəli keçirilməsi təmin edilib.

Uşaqlar üçün təşkil olunmuş çay süfrəsi arxasında qrupun rəhbəri, ixtisasca həkim olan Marika Xalvaşi həmişə olduğu kimi, bu dəfə də onlara göstərilən yüksək diqqətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib. O, burada onlara göstərilən bütün xidmətlərdən çox razı qaldıqlarını diqqətə çatdırıb, Naxçıvandakı qonaqpərvərliyə heyranlıqlarını ifadə edib. Valideynlərdən Nani Jordaniya isə nəvəsinin səhhətinin bu müalicə nəticəsində xeyli yaxşılaşdığını, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonra acarıstanlı uşaqlara hədiyyələr təqdim edilib.

**✍ Əli CABBAROV**

***Kitabların insan həyatında rolu danılmazdır. Cəmiyyətin inkişafında, insanın formalaşmasında, dünyagörüşünün artmasında, doğma yurduna, mənsub olduğu xalqa, onun tarixi keçmişinə məhəbbət ruhunda tərbiyə olunmasında əsas rol oynayan amillərin başlıcası kitabdır. Hər kitab ayrıca bir xəzinədir. Bu xəzinəni oxuduqca ona sahib olursan. Kitab oxuduqca insan onun aləminə qapılır, az da olsa, özünü o aləmdə hiss edir və ona faydalı ola biləcək məsləhətləri götürür. Bütün bunlar kitabın ən böyük xəzinə olması fikrini bir daha təsdiq edir. Bu xəzinədən istifadə edənlər, ondan bəhrələnənlər isə daxili aləmini zənginləşdirir, özlərində yüksək əxlaqi-mənəvi keyfiyyətlər formalaşdırıb, cəmiyyətdə layiq olduqları mövqeyi qazana bilirlər.***

## Kəngərli rayon ictimaiyyəti oxunması zəruri olan kitablarla bağlı sərəncamı minnətdarlıqla qarşılayır

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il avqustun 28-də "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam imzalayıb. Bu sərəncam muxtar respublikamızda sağlam gəncliyin formalaşması baxımından müstəsna əhəmiyyətə malikdir. Sərəncama əsasən gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşmasına xidmət edən "Oxunması zəruri olan kitabların Siyahısı" təsdiq edilib.

Əvvəlcə qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sərəncamı Kəngərli rayonunun ziyalıları və ictimaiyyəti tərəfindən də maraqla qarşılanıb.

Kəngərli Rayon Təhsil Şöbəsinin əməkdaşı Yusif İmanov bizimlə söhbətində bildirdi ki, kitab hər bir insanın dünyagörüşünün formalaşmasında, ona həyat yolunda əsl bələdçi olmaqda ən etibarlı yoldaşdır. İnsanlar kitablar vasitəsilə biliklərə, müəyyən peşəyə və yaxud sənətə yiyələnir, xarici dil öyrənirlər. Sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin oxunması zəruri olan kitablarla bağlı sərəncamı gənc nəslin, ümumilikdə isə bütün ictimaiyyətin marağına səbəb olub.

Rayonun ağsaqqal sakinlərindən biri, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Kəngərli Rayon Təşkilatının sədri İsmayıl Hüseynquliyev isə bildirdi ki, indi bəzən gənc nəsli kitab oxumamaqda çox qınayırıq. Amma mən bu fikirlə razı deyiləm. Doğrudur, əvvəlki dövrlərə görə ola bilər ki, indi kitab oxuyan azdır. Reallıqdır ki, elektron informasiya vasitələri kitabların oxunma sayına öz təsirini göstərib. Bizdə belə bir ənənə mövcuddur ki, hər zaman böyüklərimiz gənclərimizə müxtəlif tövsiyələr verib, onlara bu və ya digər istiqamətdə yol göstəriblər. Hörmətli Ali Məclis Sədrinin bu addımı da, hesab edirəm ki, gənclərimizə, tələbə və şagirdlərimizə tövsiyə edilən faydalı bir yoldur.

Digər rayon ziyalısı Şirvan Abbasov qeyd etdi ki, sovet dövründə kitab oxumaq mədəni istirahət hesab olunurdu. Əslində, elə indi də kitab həvəskarları bunu belə qəbul edirlər. Ancaq nəzərə alaq ki, o dövrdə kitabların sayı indiki kimi çox deyildi. Dünya ədəbiyyatına aid kitablar isə çox məhdud sayda idi. Kitabxanalarda və kitab satışı mağazalarında yalnız rus, bəzi hallarda isə Azərbaycan dilinə tərcümə olunmuş az sayda kitablara rast gəlmək olardı. İndi isə vəziyyət tamamilə fərqlidir. Kitablar çox, oxuyan isə azdır. Doğrudur, indiki oxucunu təəccübləndirmək də asan deyil. Ancaq fakt ondadır ki, indi oxunaqlı kitablar əvvəlkindən də çoxdur. Sovet dövründə yazılmış kitabların böyük əksəriyyəti ideoloji xətt üzərində qurulurdu. İndi də fərqli ideoloji cərəyanlar var. Odur ki, oxucu indi seçim etməlidir: hansı kitabı oxuyum? Məhz Ali Məclis Sədrinin bu sərəncamı oxucunun köməyinə çatır. İnanıram ki, oxucularımız, xüsusilə gənclərimiz siyahıda adları qeyd olunmuş kitabları oxuyacaq, nəticədə, onların dünyagörüşü daha da artacaqdır.

Qeyd edək ki, yuxarıda adıçəkilən sərəncama uyğun olaraq muxtar respublikamızın təhsil və mədəniyyət müəssisələrinin kitabxanalarında müvafiq kitab guşələrinin yaradılması nəzərdə tutulub. Bununla bağlı olaraq Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində və onun kənd filiallarında, eyni zamanda məktəb kitabxanalarında oxunması zəruri olan kitablardan ibarət xüsusi guşələr yaradılıb. Bu guşələrdə həmin siyahıda nəzərdə tutulmuş kitablar yerləşdirilib.

Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Dərya Dursunova məlumat verdi ki, hazırda sərəncamın icrası ilə bağlı rayonumuzun kitabxanalarında müvafiq tədbirlər həyata keçirilir. Kitabxanaya gələn oxuculara məlum siyahıda adı qeyd olunan kitablar haqqında ümumi məlumatlar verir, bu kitabların oxunmasının zəruriliyini onlara tövsiyə edirik. Müsahibimiz bildirdi ki, tövsiyə olunan kitablar tariximiz, mədəniyyətimiz və milli kimliyimiz haqqında dolğun məlumat verir, gənc nəslin həyat yolunun müəyyənləşdirilməsinə və dünyagörüşünün artırılmasına xidmət edir. Eyni zamanda adıçəkilən kitabların müzakirəsi ilə bağlı tədbirlər də hazırda tərəfimizdən görülən işlərin əsasını təşkil edir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na 30 kitab daxil edilib. Siyahıya Azərbaycan ədəbiyyatının seçmə nümunələri ilə yanaşı, dünya ədəbiyyatının məşhur yazarlarının da əsərləri salınıb. Bu baxımdan oxucular bu kitabları oxumaqla milli ədəbiyyat nümunələrimizlə yanaşı, dünya klassiklərinin də əsərləri ilə yaxından tanış ola biləcəklər.

**Asimə CƏFƏROVA**
***"Yeni həyat" qəzetinin əməkdaşı***

## Naxçıvan Dövlət Uşaq Teatrının 10 illik yubileyi qeyd edilib





***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Uşaq Teatrının yaradılmasının 10 illiyi ilə bağlı tədbir keçirilib.***

Tədbirdə muxtar respublikanın mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı on ildən artıqdır, balaca teatrsevərlərin dünyagörüşünü zənginləşdirir və inkişaf etdirir. Eyni zamanda teatr bu gün uşaqlarda incəsənətin müxtəlif növləri haqqında dolğun məlumat yaradan sənət ocağına çevrilib.

Naxçıvan Dövlət Uşaq Teatrının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov tədbirdə nümayiş etdiriləcək tamaşa ilə teatrın yeni mövsümə başladığını bildirib, bu münasibətlə teatrsevərləri təbrik edib. O, teatrın yaradıcılıq yolundan və repertuarından ətraflı söhbət açıb.

Teatrın gənc aktrisası Heyran Abdullayeva çıxışında teatr-tamaşaçı probleminə toxunub, uşaqlarda tamaşalara maraq oyatmaqda valideyn və müəllimlərin böyük rol oynadığını bildirib.

Sonra görkəmli fransız yazıçısı Antuan de Sent Ekzüperinin "Balaca şahzadə" alleqorik nağıl-povesti əsasında hazırlanmış tamaşa nümayiş etdirilib. Tamaşa şahzadənin yeddi kiçik planetə səyahətindən ibarət fantastika, alleqoriya və gerçəklik arasında real həyat epizodları üzərində qurulub. Görkəmli yazıçının insanlara səmimi münasibəti, həyatın gözəlliklərini görmək duyğuları, anlaşma və xeyirxahlıq fikirləri əsərin əsas leytmotivlidir. Tamaşada balaca şahzadələri Nurbəniz Niftəliyeva və Rəhman Abbasov canlandırırlar.

Vəli Babayev (Pilot), Mehri Nəbiyeva (İlan və Qızılgül), Heyran Abdullayeva (Tülkü), Uğur Nəsirli (Dəmiryolçu), Coşqun Əliyev (Ovçu) rollarının öhdəsindən bacarıqla gəlirlər. Azərbaycan Respublikasının Əməkdar artisti Behruz Haxverdiyev isə balaca şahzadənin rastlaşdığı tipləri (kral, şöhrətpərəst, əyyaş, işbaz, fənərçi, coğrafiyaşünas) maraqlı cizgilərlə təbii və canlı şəkildə tamaşaçıya təqdim edir. İlk baxışdan mürəkkəb görünən tamaşa, əslində, insana mənəvi-əxlaqi fikirlər aşıladığı üçün xoş təsir bağışlayır. Tamaşadakı rəqsləri Ayşən Məmmədova, Nuray Mikayılzadə, Şəfəq Budaqova, Aysu Həsənzadə, İlkanə Bayramova, Türkanə Bayramova ifa edirlər. Bir neçə peşəkar aktyor istisna olmaqla, əsasən, uşaqların iştirakı ilə ərsəyə gələn tamaşa maraqla qarşılanıb.

Tamaşanın quruluşçu rejissorları Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov və Nurbəniz Niftəliyeva, quruluşçu rəssamları Behruz Quliyev və Həbib Allahverdiyevdir. Tamaşanın rəqslərinə Humay Qafarova və Nurbəniz Niftəliyeva quruluş veriblər. Tamaşanın musiqi tərtibatçısı da Nurbəniz Niftəliyevadır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## "Naxçıvan" Universiteti növbəti beynəlxalq təlimdə təmsil olunub

Bu günlərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsi ilə Avropa Birliyinin TAİEX təşkilatı tərəfindən təlimlər təşkil olunub. İki gün davam edən təlimlərdə "Naxçıvan" Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli təmsil edib.

Təlimdə diqqətə çatdırılıb ki, Azərbaycanın ali təhsil ocaqlarında akkreditasiya standartları Avropa ali təhsil standartları əsasında yenidən formalaşdırılır. Təhsil Nazirliyi tərəfindən Azərbaycan universitetlərində daxili keyfiyyətin təminatı sisteminin qurulması və struktrunun formalaşdırılmasında müəyyən işlər həyata keçirilir.

Qeyd edək ki, bu sistemin müvəffəqiyyətlə qurulması və inkişaf etdirilməsi universitetlərin Avropa təhsil standartlarından səmərəli istifadəsinə şərait yaradır. Təşkil olunan bu təlimlərdə əsas məqsəd ali təhsil ocaqlarında daxili keyfiyyətin təminatı sisteminin yeni standartlarda qurulmasını təşkil etməkdir. Məlumat üçün qeyd edək ki, təlimlər Finlandiyanın Laplan Universiteti ilə Estoniyanın Tallin Universitetinin mütəxəssisləri tərəfindən keçirilib.

**Nuray ƏSGƏROVA**

## Həmyerlimiz ABŞ-ın nüfuzlu elmi jurnalının redaksiya heyətinin üzvü seçilib

***AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədova "American Journal of Modern Physics" ("Müasir fizikanın Amerika jurnalı") beynəlxalq jurnalının redaksiya heyətinə üzv seçilib.***



Qeyd edək ki, Günel Məmmədovanın əsas elmi fəaliyyət istiqamətləri qeyri-üzvi birləşmələrin quruluşlarının öyrənilməsi və onun əsasında yeni materialların məqsədli sintezinin həyata keçirilməsidir. Gənc alimin elmi-tədqiqat işlərinin nəticələri Azərbaycanda və xaricdə çap olunan bir sıra nüfuzlu jurnallarda dərc edilib. Onun xarici ölkə nəşriyyatında 2, Azərbaycanda isə 1 kitabı işıq üzü görüb. Alimin yerli xammal əsasında alınan "Erionit tipli seolitin alınma üsulu" və "Tomsonit tipli seolitin alınma üsulu" adlı ixtiraları cari ildə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən patentə layiq görülüb. O həmçinin ötən il Rusiya Federasiyasının Təbiətşünaslıq Akademiyasının professoru seçilib.

Bölmə əməkdaşının ABŞ-ın nüfuzlu elmi jurnalının redaksiya heyətinin üzvü seçilməsi Naxçıvan Muxtar Respublikasında aparılan elmi-tədqiqat işlərinin dünya elmi ictimaiyyətinin diqqətinə çatdırılması baxımından əhəmiyyətlidir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## *"Vətənin müdafiəsinə hazıram"* poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilib



Şahbuz Rayon Gənclər və İdman İdarəsi Təhsil Şöbəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şahbuz Rayon Şöbəsi ilə birlikdə ümumtəhsil məktəblərinin şagirdləri arasında payız çağırışına həsr olunmuş "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirib.

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəis əvəzi İdris Qəhrəmanov, Təhsil Şöbəsinin əməkdaşı Fikrət Cəfərov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Rayon Şöbəsinin əməkdaşı Məmməd Hüseynov çıxış edərək muxtar respublikada idmanın inkişafına göstərilən diqqət və qayğıdan danışıblar.

Yarışda 11 ümumtəhsil məktəbin komandası iştirak edib. Komandalar 100 metr məsafəyə qaçış, turnikdə dartınma, qumbaraatma və 2000 metr məsafəyə qaçış növlərində gücləri sınayıblar.

Komanda hesabında 394 xal toplayan Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. 321 xalla Kükü kənd tam orta məktəbinin komandası ikinci, 280 xalla Sələsüz kənd tam orta məktəbinin komandası üçüncü olub.

Qaliblər yarışın təşkilatçıları tərəfindən kubok və diplomlarla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

***Mütəhərrik oyunlar hər xalqın milli mədəniyyətinin tərkib hissəsidir. Çünki bu oyunlar həmin xalqa məxsus hərəkət fəaliyyəti aşılayır, onların fiziki-psixoloji cəhətdən düzgün inkişaf etməsində, şəxsi keyfiyyətlərinin tərbiyə olunmasında böyük rol oynayır. Bu baxımdan milli oyunlar yalnız orqanizmin inkişafını təmin edən amil deyil, həm də fiziki tərbiyə və idmanın əsas vasitələrindəndir.***

*Sağlam həyat*

## Mütəhərrik oyunlar uşaqların fiziki və zehni inkişafında əsaslı rol oynayır



Oyunlar uşaqların əqli və fiziki cəhətdən inkişafına, əxlaq və əmək tərbiyəsinə müsbət təsir göstərir. Hətta belə bir söz də var ki, uşaq oyunda necədirsə, böyüyəndə də elə olacaqdır. Onlar bu yolla hərəki fəaliyyətə və müəyyən hərəkətlərin icrasına məqsədli şəkildə yiyələnə bilirlər. Mütəhərrik oyunlar çəldliyi, çevikliyi, sürəti inkişaf etdirir, fiziki cəhətdən təkmilləşməyə zəmin yaradır (xüsusən də yarış formasında keçiriləndə). Oyun uşaqlara kollektivdə özünü necə aparmaq qaydasını öyrədir, öz şəxsi mənafeyini ümumi mənafeyə tabe etdirmək vərdişi aşılayır. O həm də iradəli, hünərli olmağı tərbiyə edir, düzgün və müstəqil hərəkət etməyi öyrədir. Oyunlar uşaqlarda dərketmə qabiliyyətini yüksəldir. Oyun həm də tərbiyə vasitəsi olub uşağın, zehnin inkişafına kömək edir, təşəbbüskarlığı yüksəldir, gümrah və çevik olmağa təsir göstərir.

Mütəhərrik oyunlar bütün dövrlərdə xalqların öz yaşam tərzlərinə uyğun olaraq tətbiq edilirdi. XVII əsrdə pedaqoqlar bu oyunların uşaqların tərbiyəsində, fiziki-zehni inkişafında böyük rolu olduğunu dərk edir və belə hesab edirdilər ki, həmin oyunlardan təlim-tərbiyə işində geniş istifadə olunmalıdır.

Görkəmli pedaqoqlar XIX-XX əsrlərdə düzgün və ardıcıl təşkil olunmuş mütəhərrik oyunları tərbiyəvi təsirin və fiziki sağlamlığın əsas vasitəsi sayırdılar. Onlar qeyd edirdilər ki, mütəhərrik oyunlar uşaqlar üçün hərəkət fəaliyyəti olmaqla, əxlaqi və əqli tərzdə dərin vasitədir. Makarenko isə mütəhərrik oyunları 3 mərhələyə (6 yaşa qədər, 12 yaşa qədər və 12 yaşdan yuxarı yaşa qədər) bölürdü.

Mütəhərrik oyunlar uşaqlardan xüsusi hazırlıq tələb etmir. Oyunlar müxtəlif şəraitdə və fərqli iştirakçılarla keçirilə bilər. Oyunların pedaqoji cəhətdən qiymətləndirilməsi qarşıya qoyulan məqsəddən asılıdır. 6-9 yaşlı oğlan və qızlarla mütəhərrik oyunlar keçirilərkən onların tez yorulmaları, skelet və əzələ sisteminin inkişafı nəzərə alınmalıdır. Kiçikyaşlı məktəblilər dolğun, tam surətdə gördüklərini, eşitdiklərini və müşahidə etdikləri qavrayıb mənimsəməlidirlər. Həmin uşaqlar üçün mürəkkəb olmayan və az vaxt tələb edən mütəhərrik oyunlar seçilməlidir. Çünki onların yaradıcılığa olan həvəsləri ötəridir və tez yorulurlar.

Ortayaşlı məktəblilərlə keçirilən mütəhərrik oyunlar nisbətən mürəkkəb, dəqiq olur və hərəkətlərin həllinin çətinliyi artırılır, süjetli, qruplara bölünərək keçirilən oyunlar uşaqların xəyallarına cavab verdiyi üçün maraqlı olur. Qarşıya məqsəd qoyulur ki, digər qrup üzərində öz bacarıqlarını göstərsinlər. Komandalar bölünərkən qrupun və oyunçuların rolu təyin edilir. Fərdi-koordinasiyalı mütəhərrik oyunlar uşaqlar üçün əhəmiyyətli sayılır, lakin bu yaşda onlara həddən çox birtərəfli gərginlik verən hərəkətlər tətbiq etmək olmaz. Çünki uşaqların ürək, qandamar sistemləri yüksək təzyiqə dözmür.

Yuxarı sinif şagirdləri ilə keçirilən mütəhərrik oyunlarda əsas yeri idman tutur və xüsusi hazırlığın həllinə yardım edir. Ancaq unutmaq olmaz ki, həddən çox yüksəkgərginlikli hərəkətlər uşaqlara mənfi təsir edə bilər. Ona görə də bu yaşlarda keçirilən mütəhərrik oyunlar idman gimnastikası, yüngül atletika, idman oyunları elementlərindən istifadə edilməklə həyata keçirilməli və yorucu olmamalıdır. Məktəblərdə fiziki tərbiyə dərslərində mütəhərrik oyunlardan sağlamlıq, tərbiyəvi və zehni inkişaf üçün istifadə edilir.

Oyunları 3 növə ayırmaq olar:

*1. Əsas və elementar mütəhərrik oyunlar (süjetli və süjetsiz)*

*2. İdman xarakterli oyunlar (basketbol, voleybol, futbol, stolüstü tennis, badminton)*

*3. Mahnı oxumaqla və əl-ələ tutub dairə təşkil etməklə oyunlar.*

Elementar mütəhərrik oyunlar azyaşlı uşaqlar üçün xarakterikdir. Bunlar süjetli və süjetsiz olurlar. Süjetli mütəhərrik oyunların adından məlum olduğu kimi, müvafiq süjeti və ciddi qayda-qanunu olur. Bu oyunlar müasir həyatla əlaqədar uşaqlarda müəyyən təsəvvürlər yaradır. Onlar müvafiq rolları yerinə yetirirlər. Süjetsiz oyunlar hər hansı bir hərəkət üzrə tapşırıqların icrasına əsaslanaraq qurulur. Bu oyunlar müxtəlif əşyalarla keçirilir (top, halqalar, çubuqlar və sair). Əşyalarla oyunun keçirilməsi uşaqların marağını yüksəldir, idman fəallığını artırır ("Bayrağa qədər qaç", "Halqalardan keç" və sair).

*Mütəhərrik oyunlar bir çox cəhətlərinə, yəni xarakter və məzmununa, daşıdığı məqsəd və vəzifələrə görə digər oyunlardan mühüm dərəcədə fərqlənir. Bu oyunlar, ilk növbədə, ciddi və məsuliyyətli, dəqiq hazırlıq işləri tələb etmir. Onun təşkili və keçirilməsi üçün sanballı təqvim-tematik planlarına, onların yerinə yetirilməsinə ciddi riayət edilməsinə, geniş və hərtərəfli təbliğatı, təşkilati tədbirlərin görülməsinə əhəmiyyətli dərəcədə ehtiyac yoxdur. Hər bir oyun alət və avadanlıqlardan, oyun ləvazimatlarından, idman bazasından və şəraitdən asılı olaraq təşkil edilməlidir.*

**Kəmaləddin İSMAYILOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi***

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 793